https://doi.org/10.36719/2706-6185/45/53-57

**Oktay Rzayev**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0009-0007-6377-255X
oktay_rzayev@mail.ru

# 1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikasına edilən həmlələr

## Xülasə

Məqalədə müstəqil Azərbaycan dövləti yaratmaq şüarı altında milli azadlıq hərəkatının güclənməkdə olduğu göstərilmişdi. Bu dövrdə Zaqafqaziyada hərbi-siyasi vəziyyətin son dərəcə kəskinləşdiyi qeyd edilmişdi. Zaqafqaziyada hərbi-siyasi vəziyyət son dərəcə kəskinləşmişdi. Sovet hakimiyyətinə qarşı mübarizədə əksinqilab öz qüvvələrini birləşdirmişdi. 1917-ci ilin noyabrında gürcü menşeviklərinin, daşnakların, musavatçıların, eserlərin nümayəndələri Tiflisdə öz diyar hakimiyyət orqanlarını - Zaqafqaziya Komissarlığını təşkil etdilər

1918-ci ilin fevral ayında Tiflisdə 4 deputat qrupundan ibarət “Zaqafqaziya Seymi” yaradıldı və aprel ayında isə Zaqafqaziyanı “Müstəqil federativ respublika” elan etdilər. Sonra Azərbaycanda və qonşu ölkələrdə respublika elan edilməsi barədə qərarlar verildi. Bundan sonra bir sıra şəhər və qəsəbələrin adları dəyişdirilib azərbaycanlaşdırıldı, məsələn: Yelizavetpol-Gəncə və s. kimi məsələlər məqalədə öz əksini tapmışdır.

Ciddi maliyyə çətinliklərinə baxmayaraq Azərbaycan Demokratik Respublikası hökuməti universitetin təşkilinə, avadanlıqların alınmasına 5 milyon manat ayırdı, aşağı milli siniflər, yəni orta məktəblər üçün müəllim kadrları hazırlamaq məqsədi ilə Bakıda, Gəncədə, Nuxada, Şuşada, Qazaxda, Salyanda, Qusarda, Zaqatalada xüsusi kurslar təşkil edildi. 1919-cu ilin noyabrında Bakı universitetinin, yəni respublikanın ilk ali təhsil müəssisəsinin açılması Azərbaycan tarixində mühüm hadisə oldu. Onun ilk rektoru rus alimi, professor V.İ.Razumovski olmuşdur. Universitetin yaranmasında Azərbaycan Demokratik Respublikasının nazirlər şurasının sədri F.X.Xoyski, N.Yusifxanov, xalq təhsil naziri R.Qaplanov, onun müavini H.Şaxtaxtinski və əlbəttə ki, əsas səbəbkarlardan biri də M.Ə.Rəsulzadə olmuşdur.

***Açar sözlər:*** *Müstəqil Azərbaycan dövləti, hərbi-siyasi vəziyyət, müstəqil federativ respublika, vətəndaş müharibəsi, milli şura, Dağlıq Qarabağ, Tiflis konfransı, Zaqafqaziya seymi, Bakı kommunası*

**Oktay Rzayev**
Nakhchivan Teachers Institute
https://orcid.org/0009-0007-6377-255X
oktay_rzayev@mail.ru

# Attacks on the Azerbaijan Democratic Republic in 1918-1920

## Abstract

The article stated that the national liberation movement is strengthening under the slogan of creating an independent Azerbaijani state. During this period, it was noted that the military-political situation in Transcaucasia was extremely aggravated.The military-political situation in Transcaucasia was extremely acute. Counter-revolution had joined forces in the fight against Soviet power. In November 1917, representatives of georgian mensheviks, dashnaks, musavat and esers organized their own local authorities in Tbilisi - the Transcaucasian Commissariat

In February 1918, the “Transcaucasian Seim” was established in Tbilisi, consisting of 4 Deputy groups, and in April Transcaucasia was declared an “Independent federative republic”. Then decisions were made to proclaim a republic in Azerbaijan and neighboring countries.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

After that, the names of a number of cities and settlements were changed and azerbaijanized, for example: Yelizavetpol-Ganja, etc. such issues are reflected in the article.

Despite the serious financial difficulties, the Government of the Democratic Republic of Azerbaijan allocated 5 million manats for the organization of the University and the purchase of equipment, special courses were organized in Baku, Ganja, Nukha, Shusha, Gazakh, Salyan, Gusar, Zagatala to train teachers for the lower national classes, teaching staff for secondary schools. The opening of Baku university, that is, the first higher education institution of the Republic in November 1919, was an important event in the history of Azerbaijan. The first rector of University was a Russian scientist, professor V.I.Razumovsky. Chairman of the Council of Ministers of the Azerbaijan Democratic Republic F.Kh.Khoyski, N.Yusifkhanov, Minister of Public Education R.Gaplanov, his deputy H.Shakhtakhtinsky and, of course, the main causative was M.A.Rasulzadeh.

***Keywords:*** *Independent state of Azerbaijan, military-political situation, independent federal republic, civil war, Daghlig-Garabagh, Tbilisi conference, Transcaucasian Seim, Baku commune*

## Giriş

Tariximizin açılmamış səhifələrinə diqqət yetirdikdə qeyd etməliyik ki, tarix ədəbiyyatımız da düzgün işıqlandırılmamışdır. 1918-ci ildə müstəqil Azərbaycan dövləti yaratmaq şuarı altında milli azadlıq hərəkatı güclənməkdə idi. Hərəkata «Musavat Türk Demokratik Partiyası» başçılıq edirdi. Onların arasında partiyanın lideri, görkəmli siyasi xadim M.Ə.Rəsulzadə də var idi.

Həmin dövrdə Musavat partiyası böyük siyasi qüvvəyə çevirilmişdir. Əhalinin geniş təbəqələri müstəqil Azərbaycan dövləti yaradılması ideyasına tərəfdar olduqlarına görə partiyanın əhali arasında nüfuzu böyük idi.

Zaqafqaziyada hərbi-siyasi vəziyyət son dərəcə kəskinləşmişdi. Sovet hakimiyyətinə qarşı mübarizədə əksinqilab öz qüvvələrini birləşdirmişdi. 1917-ci ilin noyabrında gürcü menşeviklərinin, daşnakların, musavatçıların, eserlərin nümayəndələri Tiflisdə öz diyar hakimiyyət orqanlarını - Zaqafqaziya Komissarlığını təşkil etdilər (Çıraqzadə, 1992).

1918-ci il fevral ayında yenə Tiflisdə 4 deputat qrupundan ibarət «Zaqafqaziya Seymi» yaradıldı. Sovet hakimiyyətini tanımayan və diyarın sovet dövlətindən ayrılmasına çalışan seym 1918-ci il aprelin 28-də Zaqafqaziyanı «Müstəqil federativ respublika» elan etdi. Lakin xarici müdaxilə seymin siyasətinə çox güclü təsir göstərirdi.

Öz rolunu başa çatdıran Zaqafqaziya seymi 1918-ci il mayın 26-da buraxıldı və Zaqafqaziyaya, federativ respublikaların varlığına son qoyuldu. Azərbaycanda olduğu kimi qonşu ölkələrdə də respublika elan edildi.

Azərbaycan Demokratik Respublikası yaradıldı. Onu 1918-ci ilin mayın 28-də musavat partiyasının başçılığı ilə Tiflisdə yığıncaq keçirən müsəlman milli şurası elan etdi (Köçərili, 2003).

1918-ci ildə Azərbaycan Demokratik Respublikasının elan edilməsini ancaq mayın 30-da Avropanın bütün ölkələrinə və digər paytaxt şəhərlərinə çatdırıldı. Fətəli xan Xoyski başda olmaqla Azərbaycan Demokratik Respublikası hökuməti yaradıldı və onun ilk igamətgahı Gəncə oldu.

Hökumətdə 9 nazirin 7-si musavat, hökumətin qalan iki üzvündən 1-i müsəlman sosialist blokunun nümayəndəsi, digəri sağ təmayüllü hökumətçi menşeviklərin nümayəndəsi idi.

X.Sultanov, M.H.Hacinski, N.Yusifbəyov, Ə.M.Topçubaşov, X.Xasməmmədov, M.Cəfərov və başqaları birinci nazirlər kabinetinə daxil olmuşdular (Musayev, 1996).

Rusiyadan miras qalan bir sıra şəhər və qəsəbələrimizin adları dəyişdirilib azərbaycanlaşdırıldı. Məs: Gəncə-Yelizavetpol və s.

1919-cu il dekabrın 25-nə kimi parlamentin 110 iclası çağrılmışdır. Kvorum olmadığına görə 13 iclas keçirilməmişdir. Bu dövrdə parlamentin müzakirəsinə 215 qanun layihəsi verilmiş, onlardan 60-ı parlamentin komissiyalarında qalmış, qalan qanun layihələrindən 12-si qəbul edilməmişdir.

Azərbaycan Demokratik Respublikası hökuməti Azərbaycan ordusu yaratmağa başladı.1919-cu ilin axırlarında Azərbaycan ordusuna 2 piyada və 1 süvari diviziya daxil idi ki, onun da ümumi say tərkibi 20 min nəfərə çatırdı. Milli komandir kadrları kifayət qədər olmadığına görə orduda çoxlu rus və türk zabiti qulluq edirdi (Nəzirli, 1995).

**Tədqiqat**

Vətəndaş müharibəsi aparmaq, habelə daşnakların təcavüzkarlıq siyasətindən qorunmaq üçün hərbi yardıma ehtiyac duyan Azərbaycan Demokratik Respublikasının hökuməti Türkiyə ilə ittifaq bağlamağı qərara aldı.

1918-ci il iyunun 4-də Batum konfransı zamanı Bakı kommunasına qarşı öz qoşunlarının əlbir əməliyyatları haqqında Azərbaycan Demokratik Respublikası ilə Türkiyə arasında saziş imzalandı. Bu saziş Türkiyənin hakim dairələri üçün də sərfəli idi, çünki Azərbaycana qoşun yeritməyə imkan verirdi. Nuri paşanın komandanlığı altında Türkiyə ordusunun hissələri Gəncəyə daxil oldular.

Türkiyə komandanlığının təkidi ilə 1918-ci il iyunun 17-də müsəlman milli şurası və Azərbaycan Demokratik Respublikasının birinci hökuməti buraxıldı. Əslində milli şuranın və Azərbaycan hökumətinin bəzi üzvləri şuranın və hökumətin buraxılmasına razı deyildilər. Lakin yaranmış şəraitdə onlar bu tələblə razılaşmalı oldular. Köhnə hökumətin istefası və yenisini təşkil etmək məqsədi ilə həmin gün Gəncədə M.Ə.Rəsulzadənin sədrliyi ilə müsəlman milli şurasının iclası keçirildi.

M.Ə.Rəsulzadə iclası açaraq bildirdi:- «Bu gün biz prinsipimizə sadiq qalaraq yaranmış şəraiti nəzərə almalıyıq. Bəlkə bu gün qəbul edəcəyimiz qərar bizim bədbəxtliyimiz olacaq, lakin yaranmış vəziyyətdən çıxmaq yeganə bu qərardan asılıdırsa, biz onu qəbul etməliyik».

Hökumətin başçısı, F.Xoyski, A.Səfikurdski və N.Yusifbəyov sədrin fikirini müdafiə etdilər. 1918-ci il iyununda müxalifətçilərin və daxili əksinqilabi qüvvələrin təzyiqi ilə Bakı kommunası süqut etdi və «Sentrokaspi diktaturası» deyilən eser-menşevik-daşnak hökuməti yarandı və cəmi l ay yarım ömür sürdü.

Lakin 1918-ci il sentyabrın 15-də Türkiyə və Azərbaycan qoşunlarının hissələri Bakıya daxil oldular. Bakı Azərbaycan Demokratik Respublikası hökumətinin iqamətgahına çevrildi və bütün şimali Azərbaycanın ərazisi onun hakimiyyəti altına keçdi (Süleymanov, 1998).

1919-cu ilin noyabrında Bakı universitetinin, yəni respublikanın ilk ali təhsil müəssisəsinin açılması Azərbaycan tarixində mühüm hadisə oldu. Onun ilk rektoru rus alimi, professor V.İ.Razumovski olmuşdur. Universitetin yaranmasında Azərbaycan Demokratik Respublikasının nazirlər şurasının sədri F.X.Xoyski, N.Yusifxanov, xalq təhsil naziri R.Qaplanov, onun müavini H.Şaxtaxtinski və əlbəttə ki, əsas səbəbkarlardan biri də M.Ə.Rəsulzadə olmuşdur.

Ciddi maliyyə çətinliklərinə baxmayaraq Azərbaycan Demokratik Respublikası hökuməti universitetin təşkilinə, avadanlıqla təchiz edilməsinə 5 milyon manat ayırdı və 1919/20-ci tədris ili ərzində 10 milyon 858 min manat pul xərclədi.

Aşağı milli siniflər, yəni orta məktəb üçün müəllim kadrları hazırlamaq məqsədi ilə Bakıda, Gəncədə, Nuxada, Şuşada, Qazaxda, Salyanda, Qusarda, Zaqatalada xüsusi kurslar təşkil edildi. Oktyabrın 1-də Dağlıq Qarabağ erməni xalq məktəblərinə rəhbərlik etməkdən ötrü xüsusi inspeksiya yaradıldı. Azərbaycan hökuməti Dağlıq Qarabağ ermənilərinin öz mədəni müqəddəratını təyin etməsi haqqında sərəncam verdi.

Azərbaycan Demokratik Respublikası hökuməti xaricdə də kadr hazırlanmasına əhəmiyyət verirdi. 1919/20-ci tədris ilində 100 nəfər (İngiltərəyə 10, İtaliyaya 23, Fransaya 45, Türkiyəyə 9 və Rusiyaya 13 nəfər) tələbə xarici ölkələrdə təhsil almaq üçün göndərildi. Bu tələbələr üçün dövlət hesabına xüsusi təqaüd fondu ayrılmışdı: ayda 400 frank.

Daşnaklar 1918-ci ilin axırlarında azərbaycanlıların - Zəngəzurda 40 kəndini, 1919-cu ilin yanvarında Şuşa qəzasında 9 kəndini dağıtdılar. Onlar İrəvan quberniyasındakı azərbaycanlı kəndlərində də talançılığa başlamış və 60-dan çox kənd yandırmışlar.

Fətəli xan Xoyski daşnakların silahlı basqınlarına etiraz edərək, Ermənistan hökumətinə ciddi xəbərdarlıq göndərdi. Daşnakların basqınları 1920-ci ilin əvvəllərində də davam etdi. O zaman Zəngəzurda 26 azərbaycanlı kəndi dağıdıldı (Rəsulzadə, 1990).

1920-ci il martın axırlarında daşnakların fəal iştirakı ilə Qarabağda başlanan millətlərarası toqquşmalar zamanı onlarca kənd məhv edildi və çoxlu adam qırıldı.

Bunun nəticəsində bir çox azərbaycanlı doğma yurdunu tərk edib, başqa yerlərə köçməyə məcbur oldu. Təkcə Cavanşir, Cəbrayıl və Şuşa qəzalarından 40 minə qədər, Gəncə mahalına 21 mindən çox, Şamaxı mahalına 26,8 min, Nuxa mahalına 5,1 min qaçqın gəldi. Qaçqınların sayı 100 mini ötdü.

Azərbaycan hökuməti Zaqafqaziya respublikaları arasında bütün mübahisəli məsələləri və ixtilafları dinc yolla həll etmək üçün Gürcüstan və Ermənistan hökumətlərinə üç respublika nümayəndələrinin iştirakı ilə müşavirə keçirməyi təklif etdi.

Bu məqsədlə 1918-ci ilin noyabrında Tiflisdə konfrans çağırıldı, lakin Ermənistan hökumətinin nümayəndəsi gəlmədiyi üçün konfrans baş tutmadı.

1919-cu ilin aprelində siyasi, iqtisadi və maliyyə məsələlərini yoluna qoymaq, həmçinin sərhədlərə dair mübahisələri həll etmək məqsədilə Tiflisdə Zaqafqaziya konfransı keçirildi. Burada Dağıstan Respublikasının nümayəndəsi də iştirak edirdi. Lakin həmin vaxt Denikin Ordusu Dağıstanı tutduğu və Zaqafqaziya respublikalarını da təhlükə altına aldığı üçün bu konfrans öz işini axıra çatdıra bilmədi. Vəziyyət ağır idi - Türkiyə, İngiltərə və Sovet Rusiyası ilə qarşılıqlı münasibətdə Azərbaycan Demokratik Respublikası böyük çətinliklərə rast gəlirdi. Əslində respublika Azərbaycanda yerləşən Sultan Türkiyəsi qoşunları rəhbərliyindən asılı vəziyyətə düşmüşdü.

Bakını tutduqdan sonra Türkiyə komandanlığı şəhərdə hərbi vəziyyət elan etmişdi. F.Xan Xoyski, M.Ə.Rəsulzadə məktubla müraciət edir ki, Nuru paşa ölkənin daxili işlərinə getdikcə daha çox qarışmaq istiqamətində siyasət aparır (Süleymanov, 2008).

Birinci dünya müharibəsində Almaniya-Türkiyə blokunun məğlubiyyətindən sonra 1918-ci ilin noyabrında türk qoşunları Azərbaycandan çıxdılar, bundan sonra general Tomson başda olmaqla ingilis işğalçıları gəldilər. Onlar özlərini müstəmləkəçi kimi aparırdılar, Azərbaycan Demokratik Respublikasının istiqlaliyyətini tanımırdılar. İngilis qoşunları Bakıya daxil olan kimi Azərbaycan bayrağının dərhal götürülməsinə dair əmr vermişdir.

Gəncəyə, Şuşaya, Naxçıvana da ingilis qoşun dəstələri göndərildi. İngiltərə komandanlığı neft sənayesini və nəqliyyatını öz nəzarəti altına aldı. Bundan ötrü komandanlıq Britaniya Neft Müdiriyyəti və Dəniz Nəqliyyatı İdarəsi adlı xüsusi təsisat yaratdı. Təkcə 1919-cu ilin avqustunadək ingilislər Bakıdan azı 113, 5 milyon manat dəyərində 30 milyon pud neft apardılar.

Denikin Azərbaycanın və Zaqafqaziyanın başqa hissələrini zəbt etmək, sərhədyanı rayonlarında qoşun cəmləşdirmək niyyətində idi. Zaqafqaziya respublikaları Denikinin tərəfindən gözlənilməyən təhlükəyə müxtəlif cür yanaşırdılar.

Daşnak Ermənistanı Denikinlə hərbi ittifaq bağlamışdı və ona yardım göstərirdi. Azərbaycan və Gürcüstan isə təhlükədən narahat idilər. Ona görə də Azərbaycanla Gürcüstan öz aralarında Denikinə qarşı hərbi müdafiə ittifaqı bağladılar.

Xalq kütlələrinin təzyiqi altında Azərbaycan hökuməti bununla əlaqədar səfərbərlik elan etməyi qərara aldı, lakin İngiltərədən asılı olduğuna görə Denikinə qarşı çıxışda kifayət qədər qətiyyət göstərmədi.

1919-cu ilin avqustunda İngiltərənin işğalçı qoşunları Azərbaycandan çıxıb getdikdən sonra Azərbaycan Demokratik Respublikası hökuməti Qərbin l-ci dünya müharibəsində qələbə qazanmış imperialist dövlətləri [İngiltərə, Fransa, ABŞ] tərəfindən öz suverenliyini tanınmasına təkidlə çalışmağa başladı. Bu məqsədlə Ə.M.Topçubaşov başda olmaqla Azərbaycan nümayəndə heyəti Paris sülh konfransına göndərildi (Rəsulzadə, 1991).

Ermənilər çalışdılar ki, Naxçıvan, Şərur-Dərələyəz və Sürməli ərazilərini öz ixtiyarlarına keçirsinlər. Nümayəndə heyəti Azərbaycan Demokratik Respublikası istiqlaliyyətinin rəsmən tanınması barədə Qərb dövlətlərin rəhbərliyi ilə danışıqlar aparsalar da, bu ədalətli tələbin Nəsib bəy Yusifbəyov başda olmaqla yeni koalisiyalı hökumət təşkil edildi. Lakin bu hökumət də vaxtı çatmış sosial islahatları həyata keçirə bilmədi. Yaranmış şəraitində Bakı proletariatının (XI faşist ordunun) silahlı çıxışlarının qarşısını almaq qeyri-mümkün idi.

## Nəticə

Azərbaycan parlamenti hökumətinin Azərbaycan İnqilab Komitəsinə verilməsi haqqında qərar qəbul etdi. 1920-ci il aprelin 28-də qan tökülmədən hökumət Azərbaycan İnqilab Komitəsinə təhvil verildi. Düz 72 il həqiqəti söyləyə bilmədik. Ən yaxşı yazıçılarımız, siyasətçilərimiz Sovet imperiyasının qurbanı oldular.

## Ədəbiyyat

1. Çıraqzadə, V. (1992 ). *İstiqlal yollarında*. Bakı: Azərnəşr.
2. Köçərili, X. (2003). *Azərbaycan 1920-1940-cı illərdə*. Bakı: ADPU nəşriyyatı.
3. Musayev, İ. M. (1996). *Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və siyasi dövlətlərin siyasəti (1917-1921)*. Bakı.
4. Nəzirli, Ş. (1995). *Cümhuriyyət generalları*. Bakı: Hərbi nəşiryyat.
5. Süleymanov, M. (2008). *Azərbaycan hərb tarixi*. Bakı: Elm.
6. Rəsulzadə, M. Ə. (1990). *Azərbaycan Cümhuriyyəti*. Bakı: Elm nəşiryyatı.
7. Süleymanov, M. (1998). *Azərbaycan Ordusu (1918-1920)*. Hərbi nəşiryyat.
8. Rəsulzadə, M. Ə. (1991). *Çağdaş Azərbaycan Ədəbiyyatı*. Bakı: Gənclik nəşiryyat.

Daxil oldu: 11.10.2024
Qəbul edildi: 17.02.2025